## İlqar ƏQLİKƏM

***

Kömək eylə...
Getmə gözlərimdən, getmə əzizim,
Gözlərim yol çəkir, qal kömək eylə.
Əlim aşağıdır, qəlbi satıram,
Çox da baha deyil, al kömək eylə…

Ruhum ac olsa da qəlbim tox mənim,
Günahım ömrümdən deyil çox mənim.
Havalar soyuyub şərfim yox mənim,
Qolları boynuma sal kömək eylə.

Mənə soyuq dəyib xəstələnmişəm,
Səndən soyumuşam, eşq dilənmişəm…
Həkim bal yazıbdı, kimə demişəm?
Bir sənsən dodağı bal kömək eylə…

**MƏNİ BAĞIŞLA**

Gözlərinə baxdığım, gözlərindən uzağam,
Aradabir yuxuna gəlsəm, məni bağışla.
Bir ürəkdə iki ad yaza bilər duyğular,
İstəyərək adını silsəm, məni bağışla.

Xatirənə bürünüm, nə dəyişər? Heç bir şey.
Acsan, toxsan, nə bilim? Qaniçənsən, iç bir şey.
Neçə illik sakinsən, hüququn var seç bir şey,
Al ürəyi, ya canı, ölsəm, məni bağışla.

Qulaqlarım adını dilindən duymadısa,
Fərqi yoxdu bu ömür uzun olsun, ya qısa,
Qismət güldü, bizi də gülməyə qoymadısa,
Arsız-arsız qəşş edib gülsəm, məni bağışla.

